# Ölkənin sosial-iqtisadi inkişafına yönələn proqramlar uğurla icra edilir

## *Nazirlər Kabinetinin 2016-cı ilin yekunlarına həsr edilən iclasından irəli gələn vəzifələr bütün bölgələrdə yüksək dəyərləndirilir*

**Yanvarın birinci yarısı üçün Azərbaycanın ictimai-siyasi həyatında ən mühüm və əlamətdar hadisə, şübhəsiz ki, Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasının keçirilməsidir. Yanvarın 10-da baş tutan bu mühüm tədbirdə Prezident İlham Əliyev giriş və yekun nitqləri söyləyib.**

**Dövlət başçısı öz dərin məzmunlu nitqlərində dünyada baş verən siyasi, iqtisadi, hərbi proseslərə, toqquşmalara toxunub və bu böhranlı dövrdə Azərbaycanın əldə etdiyi uğurlardan söhbət açıb. Cənab İlham Əliyev ölkədə həyata keçirilən layihələrdən, o cümlədən, "Ağ şəhər" layihəsindən, bölgələrdə yaradılan texnoparklardan, Pirallahıda tikilən dərman preparatları müəssisəsindən, kənd təsərrüfatında əldə olunan nailiyyətlərdən, pambıqçılıq, baramaçılıq, tütünçülük, üzümçülük, heyvandarlıq sahələrində qarşıda duran vəzifələrdən, təhsil, səhiyyə obyektləri tikintisindən və onları daha da inkişaf etdirməkdən, "ASAN xidmət" sahələrinin genişləndirilməsindən və s. ətraflı danışıb.**

**Prezidentin dərin məzmunlu nitqi ölkəmizin bütün bölgələrində maraqla izlənib və ruh yüksəkliyinə səbəb olub. Aşağıda Nazirlər Kabinetinin iclasında qaldırılan məsələlərlə bağlı bölgələrimizdən daxil olan məktubları dərc edirik.**

Nazirlər Kabinetinin iclasında dövlət başçısının üzərində dayandığı ən mühüm mövzulardan biri də ötən ilin aprelində düşmənlə təmas xəttində baş verən döyüşlər, şanlı ordumuzun qələbəsi, işğal altındakı torpaqlarımızın bir hissəsinin azad olunması idi. Cənab İlham Əliyev iclasda dedi ki, bu, bizim şanlı tariximizdir, biz hərbçilərimizlə fəxr edirik.

Aprel döyüşlərindən sonra dövlətimizin hərbçilərə, şəhid ailələrinə, yaralılara qayğısı daha da gücləndirildi, dağılmış evlər, ziyan çəkmiş obyektlər yüksək səviyyədə bərpa olundu.

**Ağdam Rayon İcra Hakimiyyəti başçısının müavini Ağa Zeynalovun** imzası ilə redaksiyamıza daxil olmuş məktubda məhz bu məsələlərdən danışılır. Ağa müəllim yazır:

– Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Füzuli rayonunun ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı xüsusi qeyd etdi ki, respublikamızın hər yerində abadlıq-quruculuq işləri aparılır. Lakin "Füzuli və Ağdam rayonlarında sürətlə aparılan sosial-iqtisadi inkişaf məni daha çox sevindirir".

Rayonda tikinti, abadlıq, quruculuq sahəsində genişmiqyaslı işlər görülüb. Belə ki, Heydər Əliyev prospektinin İmamqulubəyli kəndindən başlayaraq qəsəbəyə qədər olan hissəsində yenidənqurma işləri aparılıb. Quzanlı qəsəbəsində avtovağzal, mini futbol meydançası, Çay evi, yanacaqdoldurma məntəqəsi, Təzəkənd qəsəbəsində poçt şöbəsinin binası istifadəyə verilib. Bundan başqa, Evoğlu kəndində 100 yerlik uşaq bağçası, Çəmənli kəndində kitabxana, Əfətli və Əhmədağalı kəndlərində Böyük Vətən Müharibəsi iştirakçılarnın və Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə abidə kompleksləri inşa olunub. Çəmənli kənd uşaq bağçasının, Üçoğlan kənd xəstəxanasının təmiri başa çatdırılıb, Heydər Əliyev prospektində xiyaban salınıb.

Torpaqlarının böyük əksəriyyəti erməni işğalı altında qalan ağdamlılar ötüb keçən illər ərzində dövlətə, dövlətçiliyə öz sədaqətlərini dönə-dönə nümayiş etdiriblər. Həyatın bütün sahələrində qazanılan uğurlar daha böyük nailiyyətlərin təməlini qoyub, sabaha olan inamı daha da gücləndirib. Ağdamlılar dövlət müstəqilliyinin 25-ci ildönümünü qeyd edərkən bütün tədbirlərdə dönə-dönə vurğulayıblar ki, xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün illər ərzində Ağdam rayonunun inkişafına, bu yurdun insanlarına diqqət və qayğı göstərib. Ulu öndərin adı Ağdam camaatının qəlbində əbədi heykələ çevrilib.

Möhtərəm Prezidentimiz İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində tutduğu qətiyyətli mövqeyini, dəmir iradəni bütün məcburi köçkünlər ürəkdən müdafiə edir və onun ətrafında sıx birləşiblər.

Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə başçısı cənab İlham Əliyev demişdir: "Keçən il məcburi köçkünlərin problemlərinin həlli üçün yeni addımlar atılmışdır, yeni qəsəbələr salınmışdır. Bu il də bu proses davam edəcək, yəni, bu məsələ daim diqqət mərkəzindədir. Əlimizdən gələni edirik və edəcəyik ki, məcburi köçkünlərin vəziyyətini daha da yaxşılaşdıraq".

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında söylədiyi bu fikirlər Bərdə rayonu ərazisində kompakt yaşayan məcburi köçkünlər ordusu tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Bu günlərdə Bərdədə elə bir məcburi köçkün ailəsi tapılmaz ki, ölkə başçısının fikirlərinə münasibət bildirməsin. Vaxtilə sosial problemlər məngənəsində boğulan insanlar dövlətin bu gün onlara göstərdiyi əsl qayğını bir daha yekdilliklə bəyənir və bu istiqamətdə görülən ardıcıl işləri dəstəkləyirlər.



**Dövlət Qaçqınkomun Bərdə rayonu üzrə baş məsləhətçisi S.Zeynalovun** redaksiyamıza məktubunda da bu mövzudan söhbət açılır. Məsləhətçi yazır ki, 2013-cü ildə Bərdə rayonu Təhlə kəndi ərazisində həyət evlərindən ibarət 195 yerlik qəsəbə, 2014-cü ildə Bərdə şəhəri yaxınlığında Həsənqaya kənd bələdiyyəsi ərazisində 866 yerlik 15 beşmərtəbəli binadan ibarət Qaçqın şəhərciyi, 2015-ci ildə isə 14 ədəd 7 mərtəbəli 588 yerlik bütün infastrukturla təmin olunmuş qəsəbələr möhtərəm Prezidentimizin iştirakı ilə məcburi köçkünlərin istifadəsinə verilmişdir. Hər 3 qəsəbə hüquq-mühafizə orqanlarının, mətbuatın, məcburi köçkünlərin iştirakı ilə Bərdə Rayonu İcra hakimiyyəti başçısının təsdiq etdiyi siyahı əsasında Dövlət Komissiyası tərəfindən püşkatma yolu ilə tam şəffaflıqla paylanılmışdır.

Bütün bunlar məcburi köçkünlərə dövlətimizin ən böyük qayğısının təzahürüdür. Məcburi köçkünlərin sosial problemlərinin həlli dövlətin daim diqqət mərkəzindədir. Dövlət proqramlarına uyğun respublika Baş prokurorluğu və "Azneftkimyamaş" Açıq Səhmdar Cəmiyyəti Bərdə rayonunda müvəqqəti məskunlaşan məcburi köçünlərə maddi və mənəvi köməklik üçün təhkim edilmişlər. Həmin təşkilatların rəhbərləri bayram günlərində Bərdə rayonuna baş çəkir, ağır vəziyyətdə yaşayan məcburi köçkünlərlə görüşür, onların bayramlarını təbrik edir və köçkünlərimizə mənəvi dayaq olurlar.

Bir vaxtlar Bərdə şəhəri 105 saylı Peşə liseyində məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları korpusda yanğın baş verərkən yeddi məcburi köçkün ailəsi acınacaqlı vəziyyətdə sığınacaqsız qalmışdı. Rayona səfər edən daxili işlər naziri R.Usubov DİN-in təmir-tikinti idarəsini operativ olaraq Bərdəyə səfərbər etməklə, həmin korpusun müasir formada təmirinə dəstək oldu. Bərdənin N.Nərimanov küçəsində yerləşən və 40-dan çox məcburi köçkün ailəsinin məskunlaşdığı bina yenə də həmin nazirliyin təmir- tikinti idarəsinin mütəxəssisləri tərəfindən əsaslı təmir edilmişdir.

> **"Biz, əbəttə ki, bu böhranlı vəziyyətdən çıxış yolunu tapmalı idik və hesab edirəm ki, tapmışıq. Bütün çətinliklərə, itkilərə baxmayaraq, biz iqtisadi sabitliyimizi qoruya bildik, bu ağır vəziyyətdən şərəflə çıxa bildik".**
>
> *(Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı giriş nitqindən)*

Bu gün Bakının geosiyasi Davosa çevrilməsi, Azərbaycan Prezidentinin beynəlxalq görüşlərdə qaçqınların və eləcə də bütün dünya müsəlmanlarının və türk dünyasının təəssübkeşi kimi çıxış etməsi, ötən il aprelin əvvəllərində təmas xəttində baş verən hadisələrlə bağlı atılmış addımlar Bərdədə müvəqqəti məskunlaşmış məcburi köçkünlərin qəlbində qürür hissi doğurur.

Dövlətqaçqınkomun Bərdə rayon nümayəndəsi olaraq Azərbaycan Respublikası Prezidentinin, Nazirlər Kabinetinin fərman və sərəncamlarından, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Bərdə Rayon İcra Hakimiyyəti başçısının sərəncam və əmrlərindən irəli gələn vəzifələri məcburi köçkünlərə şərh edir və geniş təbliğat işi aparırıq.

Məcburi köçkünlərimiz Prezidentimizin siyasi kursunu dəstəkləyir, öz əməkləri ilə nəzərdə tutulan vəzifələrin həyata keçirilməsində iştirak etmək əzmindədirlər. Onlar əmindirlər ki, cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğal olunmuş doğma torpaqlarımıza mütləq qayıdacaqlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında aqrar sahədə əldə olunan nailiyyətləri yüksək dəyərləndirən ölkə başçısı demişdir: "... Keçən il kənd təsərrüfatının inkişafında uğurlu il olmuşdur. Biz artıma nail ola bildik. Bu il bu artım hesab edirəm ki, daha böyük rəqəmlərlə ölçülməlidir".

**Qobustan Rayon İcra Hakimiyyəti şöbə müdirinin müavini İbadət Bəhrəmov** redaksiyamıza məktubunda yazır ki, rayonumuzun ümumi sahəsinin 83959 hektarını kənd təsərrüfatına yararlı torpaqlar təşkil edir. Hazırda kənd təsərrüfatına yararlı torpaqların 24645 hektarından 55 min 43 ton taxıl məhsulu istehsal edilmişdir ki, bu da hektara 22,3 sentner deməkdir. Əlbəttə ki, bu, dəmyə şəraitində böyük göstəricidir. Əgər bu göstəricini 5 il bundan əvvəlki vəziyyətlə müqayisə etsək, hər hektardan 11 sentner çox məhsul əldə edildiyinin şahidi olarıq.

Qeyd etməliyəm ki, əkinçiliyi rayonumuzda şərtləndirən əsas amillərdən biri də torpaq sahələrinin kooperasiya yolu ilə birləşdirilməsinə nail olmaqdır. Əkin sahələrinin çox kiçik hissələrə bölünməsi, ara məsafələrində istifadəsiz saxlanılan torpaqlar həm ziyanvericilərin, həm də xəstəliklərin artmasına şərait yaradır, eyni zamanda təxminən 100 hektardan artıq sahənin istifadəsiz qalmasına gətirib çıxarır. Nəzərə alaq ki, heç də 7 mindən artıq mülkiyyətçinin hər biri aqrotexniki qaydaları, əkinlərə qulluq tədbirlərini lazımınca bilmir və eyni zamanda bu işləri vaxtlı-vaxtında həyata keçirmirlər.

Ötən ildə cari ilin məhsulu üçün biz 8500 hektardan artıq sahədə əkin işlərini həyata keçirmişik. Hava şəraiti əkini bir qədər ləngitsə də, biz bu işin öhdəsindən gələ bildik.

Qobustan ölkəmizin böyük heyvandarlıq rayonlarından biridir. Son illər rayonumuzda həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində iribuynuzlu mal-qaranın sayı 3 faiz artaraq 30 min 542 başa, o cümlədən inək və camışların baş sayı 4 faiz artaraq 11 min 393 başa çatmışdır.

Heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması qarşımızda duran əsas vəzifələrdən biridir. Doğrudur, rayonumuzda hələlik bir iri heyvandarlıq müəssisəsi yaradılmışdır, lakin hədəfimiz bu cür iri komplekslərinin sayını artırmaqdır.

Ötən il ərzində rayonda qoyun-keçilərin sayı 2 faiz artaraq 190375 başa, quşların baş sayı isə 1 faiz artaraq 87080 başa çatmışdır.

Son vaxtlar hökumətimiz pambıqçılığın inkişafına böyük önəm verir. Cənab Prezidentimizin Nazirlər Kabinetinin iclasında adıçəkilən məsələnin üzərində ətraflı dayanması da bu diqqət və qayğının parlaq nümunəsidir. **Saatlı rayonu, "Şamo" MMC-nin direktoru Yaşar Hüseynovun məqaləsi pambıqçılıqda rekord nəticələrə nail olan Saatlıdan göndərilib.** Yaşar müəllim deyir ki, pambıqçılığın gözdən salındığı dövrlərdə də "Şamo" MMC fəaliyyətini dayandırmırdı. Uzun illər respublikanın pambıqçılığında təcrübəli mütəxəssis kimi şöhrət qazanan və "Şamo" MMC-nin təsisçilərindən olan Vahid Hüseynov bu qiymətli bitkinin nə vaxtsa yenə də kənd təsərrüfatında aparıcı rol oynayacağına inanır və pambıq əkinini davam etdirməyi məsləhət görürdü. Budur, nəhayət, həmin dövr gəlib. Aqrar sahənin dirçəldilməsi, o cümlədən pambıqçılığın inkişafı günün prioriteti hesab olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aqrar sahənin inkişafına həsr olunan proqram xarakterli göstərişləri, o cümlədən son nitqindən irəli gələn vəzifələr ölkənin hər yerində geniş miqyasda icra olunmaqdadır. Pambıqçılığa diqqət böyük razılıqla qarşılanır. "Ağ qızıl"əkilən sahələrin həcmi hazırda birə-beş artırılıb. "Şamo" MMC cari ilin pambıq əkinində həmişə olduğu kimi, yenə də birincilər sırasındadır.

Hər şeydən əvvəl, dövlət başçımız cənab İlham Əliyevə zavodumuzun kollektivi, təsisçilərimizin, o cümlədən Vahid müəllimin adından, öz adımdan dərin minnətdarlığımı bildirirəm.

Pambıqçı əməyinin çətinliyini təkrar etməyə ehtiyac duymuram. Bu çətin işin daşıyıcılarına daimi qayğı və diqqət lazımdır. "Şamo" MMC şərəfli işin sahiblərinə əlindən gələn köməkliyi edir. Pambıqçılara ilkin olaraq 500 min manatdan artıq avans vermişdik. Bununla yanaşı, onları toxum və kimyəvi maddələrlə təmin etdik. Texnika sarıdan çətinlik qarşıya çıxdığı halda, bu işdə də onlara yardımçı oluruq. Bir sözlə, maddi-texniki, pul vəsaiti, kimyəvi maddələr sarıdan heç bir problem yoxdur.

"Şamo" MMC-nin xarici ölkə istehsalı olan avadanlıqlarla işləyən müasir emal zavodu var. Yeni mövsümdə tarlalardan yüksək məhsuldarlıq gözləyirik. Bu il 3 min hektardan artıq sahədə pambıq becərməyi nəzərdə tutmuşuq. 450 nəfər fermerlə müqavilə bağlamışıq. Bugünkü işlərin gedişatı göstərir ki, "ağ qızıl"ın unudulan şöhrəti tezliklə özünə qaytarılacaqdır.

Prezident cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında aqrar sahənin inkişaf perspektivlərinə toxunan ölkə başçısı demişdir: "... üzümçülüklə bağlı, hesab edirəm ki, daha da ciddi işlər aparılmalıdır və mənim tərəfimdən müvafiq göstərişlər verilib. Burada da həm yeni üzüm bağlarının salınması, eyni zamanda, şərab zavodlarının səmərəli fəaliyyəti, keyfiyyətin artırılması vahid bir kompleks yaratmalıdır".

Üzümçülüyün ən çox inkişaf etdiyi bölgələrdən biri Cəlilabad rayonudur.

**Cəlilabad rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Rahib Kərimovun** məktubu da bu mövzudan bəhs edir. Rahib müəllim yazır ki, rayonumuzda üzümçülüyün inkişafı ilə bağlı son illər xeyli iş görülmüşdür. Fermerlər daha çox gəlir gətirən bu sahənin inkişaf etdirilməsinə maraq göstərirlər. Hazırda rayonumuzun ərazisində 1250 hektardan artıq sahədə üzüm bağları salınmışdır. Fermerlər xaricdən gətirilən texniki və süfrə üzüm sortlarına rentabelli olduğu üçün daha çox üstünlük verirlər.

Cəlilabad rayonunun Təzəkənd ərazisində Mədətov Sahib Gülağa oğlu tərəfindən 52 hektar sahədə üzüm bağı salınmışdır. O cümlədən, 46 hektarı məhsuldar bağ, 6 hektarı isə yeni salınmışdır. Həmin sahədə texniki üzüm sortlarından: Rikosteli, süfrə sortlarından: Kardinal, Sultani, Sentrial, Attika, Prima, Ontorial, Ağadayı, Orreal, Redqlob sortları əkilmişdir. Fermer həmin sahələrdə aqrotexniki işlərin icrası üçün 15 nəfər işçi qüvvəsindən, cərgəarası aqrotexniki işlərin aparılması üçün özünəməxsus kənd təsərrüfatı texnikasından və digər aqreqatlardan istifadə edir. Hazırda fermer həmin sahələrdə cərgə aralarının şumlanması işini başa çatdırmış, tənəklərin quru budanması işlərini aparır. 2016-cı ildə həmin sahədə hektara orta məhsuldarlıq 100 sentner olmuşdur.

**"Mən hesab edirəm ki, 2017-ci il turizmlə bağlı daha da uğurlu olacaq".**



Bu sözləri Nazirlər Kabinetinin iclasındakı yekun nitqində cənab İlham Əliyev söyləmişdir. Dövlət başçısı turizmi inkişaf etdirməklə bağlı vəzifələr irəli sürmüşdür.

Ölkənin turizm baxımından ən potensial rayonlarından biri də İsmayıllıdır. **Rayon icra hakimiyyətinin şöbə müdiri Sevil Əhmədova** bununla bağlı öz məktubunda yazır:

- Region üzrə 6 istiqamətdə turist marşrutları hazırlanmışdır. Rayonumuza BƏƏ-dən, Türkmənistandan, Çexiyadan, Rusiyadan, Amerikadan-Los Angelesdən gəlmiş qonaqlar qarşılanmış, onlara tanışlıq məqsədilə geniş məlumatlar verilmişdir. Regionda kənd turizmi ilə məşğul olan şəxslərlə görüşlərin keçirilməsi, ev sahiblərinə bir sıra tövsiyələr verilməsi və evlər haqqında ümumi məlumat baza toplanması da mərkəzin fəaliyyətində mühüm yer tutur. "Kənd yaşıl turizmin inkişafına dəstək" İctimai Birliyinin təşkil etdiyi kiçik sahibkarlığın inkişafı məqsədi ilə kənd qonaq evlərində turist xidmətlərinin göstərilməsi qaydaları üzrə maarifləndirmə işlərinin aparılması və metodik vəsaitin çapı layihəsində İsmayıllı TİM-in işçiləri də yaxından iştirak etmişlər.

Şamaxı-Balakən turizm dəhlizinin yaradılması həmin ərazilərdə iki-üç ulduzlu otellərin tikintisinə, həmçinin bu istiqamətdə daha genişmiqyaslı işlərin başlanmasına təkan vermişdir. Hazırda rayonumuzda çoxlu sayda turistin yerləşməsi üçün yaraşıqlı otel inşa olunur.

2010-cu ildə rayona 25 min nəfər turist gəlmişdirsə, bu göstərici 2015-ci ildə 99500 turist, 2016-cı ildə 101 min nəfər olmuşdur. Onların rayondakı 23 istirahət mərkəzində yerləşdirilməsi təmin olunmuşdur.

Azərbaycan Respublikası mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin müvafiq sərəncamına əsasən İsmayıllı rayonunun mərkəzində 2016-cı ilin iyun ayının birindən Turizm Bazarı fəaliyyətə başlamışdır. Bazarda regionu əks etdirən əl işləri sərgilənir və satışı, həyata keçirilir, hər günün sonunda mədəniyyət müəssisələrinin musiqili proqramı təşkil olunur. Hər həftənin 6-cı günləri mədəniyyət müəssisələrinin rəhbərliyindən ibarət toplantı təşkil olunur və növbəti həftənin proqramı tərtib edilir və Turizm İnformasiya Mərkəzi tərəfindən həmin proqramlar mehmanxana və mehmanxana tipli istirahət mərkəzlərinə göndərilir. Əlavə olaraq növbəti həftənin sonlarında istirahət mərkəzlərində İsmayıllı TİM tərəfindən Azərbaycan filmləri nümayiş olunur. Bu ilin sonunda regionun bələdçi kitabçası və turizm xəritəsi hazırlanmışdır. Bu da qonaqların regionun turizm haqqında məlumatlanmasına kömək olacaqdır. Rayon ərazisində 233 dövlət tarix mədəniyyət abidəsi vardır ki, bunlardan Cavanşir qalası, Qız qalası, Qırx otaq, Buzxana kimi abidələrə maraq daha böyükdür. Buynuz kəndindəki dağ şəlaləsi, aşağı Cülyandakı Cülyan şəlaləsi, Talıstan kəndinin şimalında dağlıq ərazidə yerləşən Qaranohur gölü rayonun gələcək turizmi üçün əlverişli təbiət gözəllikləridir.

Masallı şəhərinin Heydər Əliyev prospektində ucaldılmış regional "ASAN xidmət" mərkəzinin əzəmətli binası da möhtəşəmliyi, gözəlliyi, bənzərsiz arxitekturası ilə seçilir. Azərbaycan Prezidenti cənab İlham Əliyev keçən il sentyabr ayının 3-də Masallı rayonuna növbəti səfəri çərçivəsində mərkəzin açılışında şəxsən iştirak edib.

Dövlətimizin başçısı açılış mərasimində söylədiyi nitqində bildirib ki, "ASAN xidmət" Azərbaycan məhsuludur, Azərbaycan ixtirasıdır. Biz fəxr edirik ki, dünya miqyasında analoqu olmayan intellektual məhsul artıq Azərbaycanın müəllifliyi ilə dünyaya təqdim olunur. Artıq bəzi ölkələr bizim təcrübəmizi öyrənməyə çalışırlar, müxtəlif formatda əməkdaşlıq aparılır. Bu, onu göstərir ki, doğrudan da bizim təşəbbüsümüz çox böyük və geniş nəticə hasil edib və bunun çox gözəl ictimai rezonansı da var. İnsanlar da bu xidməti çox bəyənirlər. Bəyənmə əmsalı 98 faizdir. Bu illər ərzində 3 milyon 500 insan mərkəzlərə müraciət etmişdir. Müraciətlərin ümumi sayı isə 11 milyon 300-dür. Artıq 11-ci mərkəz fəaliyyətə başlayır.

Bu sətirlər **Masallı Rayon Ağsaqqallar Şurasının sədr müavini, respublikanın əməkdar müəllimi Mirqabil Hüseynovun** redaksiyamıza ünvanladığı məktubundan götürülüb. Məktubda deyilir ki, Masallıda ən müasir layihə əsasında tikilmiş kompleks dördmərtəbəli inzibati binadan və ictimai iaşə obyektləri üçün nəzərdə tutulan altı binadan ibarətdir. Kompleksin 4480 kvadratmetr ərazisində "ASAN xidmət" mərkəzi yerləşir. Mərkəzdə 10 dövlət orqanı - Ədliyyə, Daxili İşlər, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Milli Arxiv İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq xidmətləri göstərilir.

"ASAN xidmət" kompleksində vətəndaşların rahatlığı üçün hər cür şərait yaradılıb. Burada xidmət mədəniyyəti olduqca yüksəkdir. İçəriyə daxil olan vətəndaşı mühafizə xidmətinin işçiləri qarşılayır, məlumat köşkünün əməkdaşları isə istiqamət göstərir, hamını nəzakətlə, ehtiramla qəbul edirlər.

Burada işlər elə qurulub ki, vaxtın necə keçdiyini hiss etmirsən.

Möhtərəm Prezidentimizin müəllifi olduğu "ASAN xidmət" vətəndaşların böyük razılığına səbəb olub. Masallıda belə bir mərkəzin açılması regionda yaşayan bütün əhalini ürəkdən sevindirir. Mərkəzin əməkdaşları vətəndaşlara qarşı olduqca həssas, səmimi və diqqətlidirlər. Göstərilən xidmətlərdən hamı razılıq edir. Əhaliyə göstərilən yüksək diqqət və qayğıya görə vətəndaşlar ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirirlər.

**"RESPUBLİKA".**



